# Musiqi Nəzakət Teymurovanın canında, qanında, ruhundadır...

## Müsahibimiz Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Azərbaycanın Xalq artisti, Prezident mükafatçısı Nəzakət Teymurovadır

***- Özünü sənətinin "Leyli"si adlandıran Nəzakət Teymurova həyatda necədir?***

- Mən musiqi ilə yaranmışam. İlk rolum "Leyli və Məcnun" operasında Leyli olub. Bu rolun üzərində 7 ay çalışmışam. Böyük sənətçilər qarşısında sanki imtahan verirdim. Hər dəfə məşqə gələndə böyük həyəcan keçirirdim. Bu rol mənə uğur gətirdi. Sonradan bir çox tamaşalarda baş rollar aldım. 2000-ci ildə əməkdar artist, 2005-ci ildə Xalq artisti adına layiq görülmüşəm. ABŞ, Fransa, Almaniya, Macarıstan, Yaponiya, Cənubi Koreya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, İran, Rusiya, İsrail, onlarca digər xarici ölkədə olmuşam. Orada xalq musiqimizi, muğamlarımızı, milli adət-ənənələrimizi təbliğ etmişik. Mən sənətimin "Leyli"siyəm. Həyatda adi bir vətəndaşam. Hər gün öz peşəmlə məşğul oluram. Tələbələrimə sənətin sirlərini öyrədirəm.

***- Çox az xanəndələr olur ki, yaradıcılıqlarını opera ilə birləşdirə bilirlər. Bəs siz operaya necə gəldiniz?***

- Operaya Asəf Zeynallı adına musiqi texnikumundan təyinatla gəlmişəm. Ancaq burada öz istəyim və məqsədim də önəmli olub. Ümumiyyətlə, bu sənətdə səslə kifayətlənmək olmaz, çox çalışmaq lazımdır. Əgər bu şans sənə verilirsə, gərək onu düzgün istiqamətləndirəsən.

***- Hər bir xanım sənətçinin ən böyük arzusu səhnədə Leyli rolunu ifa etməkdir. Gənc yaşlarınızdan Leylini oynadınız. Qısqanclıqlardan qorxmadınız ki?***

- Qısqanclıqlar hər bir sahədə olduğu kimi, bizim sənətdə də var. Ancaq mən bu qısqanclıqlardan qırılmadım. Əksinə, bir az da mətinləşdim. Elə o vaxt özümə söz verdim ki, nə vaxt məşhur xanəndə olsam gəncləri kiçik görərək aşağılamayacağam. Bu gün də sözümü tuturam. İnanıram ki, gənc ifaçı və leylilər məndən razıdırlar. İlk dəfə Leyli kimi səhnəyə çıxanda inanın ki, sanki qanad açıb göydə uçurdum. Elə bilirdim ki, artıq mən öz sözümü demişəm. Ancaq sənətin dərinliyinə vardıqca görürsən ki, yox, hər dəfə səhnədə axtarışda olmaq, yenilik etmək lazımdır. Beş il öncəki kasetlərimə baxanda analiz edirəm və görürəm ki, nə qədər çatışmayan məqamlar var. Həm ifa tərzimdə, həm də plastikada. Opera səhnəsində hər şey bir-birini tamamlamalıdır. Bunları sonralar başa düşdüm.

***- Əvvəllər muğam sənətinə bu qədər diqqət və qayğı yox idi. Çətinliklər qarşısında geri çəkilmək istəyiniz olubmu?***

- Heç vaxt çətinliklərdən qorxmamışam. Əksinə, üstünə getmişəm. Bugünkü uğurlarım böyük zəhmətimin bəhrəsidir. Bu gün gənclərə yaradılan şərait çox qənaətbəxşdir. O vaxtlar bu qədər müsabiqələr və muğama dəstək yox idi. Son illər aparılmış məqsədyönlü işlərin nəticəsi olaraq, muğam sənəti bir daha dünya musiqi incisi kimi təsdiqini tapdı. Mən həmişə deyirəm ki, bizə qələbə qazandıran Azərbaycan muğamının mükəmməlliyi, kamilliyi və möhtəşəmliyidir. Bizim muğamlarımızın sərhədi yoxdur. Muğam irsən canımıza, qanımıza hopub, onun incəliklərini ancaq azərbaycanlılar bilir.

"Muğam Azərbaycanın milli sərvətidir" - deyən möhtərəm Prezidentimiz İlham Əliyevin dəstəyi, diqqət və qayğısı, "Biz muğamı gələcək nəsillərə qəlbimizin və ruhumuzun bir hissəsi kimi miras qoyuruq" söyləyən Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsləri nəticəsində muğam sənəti yeni inkişaf mərhələsini yaşayır. Bu gün Avropanın böyük dövlətlərinin, ABŞ-ın bir çox ştatlarının, Yaxın Şərq və Orta Asiya ölkələrinin səhnələrində Azərbaycan muğamı sevilərək dinlənilir və sürəkli alqışlarla qarşılanır. Ölkəmizin birinci xanımı Mehriban Əliyevanın muğam sənətinin inkişafında misilsiz xidmətləri və gərgin zəhmətinin bəhrəsidir ki, bir çox maddi abidələrlə yanaşı, qədim muğamımız da UNESCO-nun "Qeyri-maddi mədəni irs" siyahısına salınmışdır. Məhz onun təşəbbüsü sayəsində sistem halında gerçəkləşən layihələr, keçirilən müsabiqələr istedadlı gənclərin sənət yoluna yaşıl işıq yandırır. İstedadlı uşaqları üzə çıxarmaq üçün mütəmadi şəkildə ümumrespublika baxış-müsabiqələri keçirilir, qaliblərin təhsil almalarına şərait yaradılır. Muğam sənəti əsrlər boyu Azərbaycan xalqının milli tanıtma nişanlarından biri kimi milli-mədəni irsimizin əsas hissəsini təşkil edib. Bu mənada, bizi millət kimi qoruyub saxlayan bu mədəni irsi, mədəniyyəti yaşatmaq və təbliğ etmək hər birimizin mənəvi borcudur.



***- Səhnədə tərəf müqabili böyük əhəmiyyət kəsb edir. Tərəf-müqabili sarıdan özünüzü şanslı hesab edirsinizmi?***

- Ümumiyyətlə, deyə bilərəm ki, tərəf müqabili sarıdan özümü şanslı hesab edirəm. Mənim opera səhnəsində çox dəyərli və mükəmməl tərəf müqabillərim var. Azərbaycanın Xalq artisti Mənsum İbrahimovla uzun illərdir ki, bir səhnəni bölüşürük. Səhnədə tərəf-müqabili böyük əhəmiyyət kəsb edir. Qarşımdakı insandan, tərəf müqabilimdən o hissi, duyğunu ala bilməsəm, oxuya bilmərəm. Bu zaman uğurlu çıxışdan da söhbət gedə bilməz.

***- İnsan tək olanda aciz olur. Ona görə də yanında həyatını bölüşən insan lazımdır. Siz bu fikirlə razısınızmı?***

- Həyatda təklikdən qorxulu heç nə yoxdur. Ona görə də yanında həyatını bölüşən insan olmalıdır. Bir qızım var. Şükür Allaha ki, şəxsi həyatımı sənətə qurban verməmişəm. Mən tələbə olandan sevdiyim insan mənim yanımdadır. Özümə xoşbəxt deyə bilərəm. Xoşbəxtəm ki, ailəm, uşağım yanımdadır. Onların sağ-salamat olması mənim üçün sonsuz xoşbəxtlikdir.

***- Çoxları deyir ki, sənət insanı şəxsi həyatı, ailəni qurban verməyə vadar edir. Hər ikisini eyni anda tarazlaşdırmaq çətin məsələ olur. Bəs sizdə vəziyyət necədir?***

- Çətin olmağına çətindir. Ancaq sənətini sevən qadın çətinliklərin öhdəsindən gələrək hər bir işini tarazlaşdırmağı bacarmalıdır. Hesab edirəm ki, məni başa düşən insanla ailə qurduğum üçün bu çətinlikləri asanlıqla dəf edirik. Doğmalarımın da burada dəstəyi danılmazdır.

***- Deyirlər ki, qadının yaşının üzərinə yaş gəldikcə, daha da gözəlləşir, müdrikləşir. Siz bu fikirlə razısınızmı?***

- Ümumiyyətlə, insan yaşa dolduqca zamanla həlimləşir, daxilən gözəlləşir. Həyatı dərk edir, başa düşür. Götür-qoy etməyi, düzgün seçim etməyi bacarır. 20 yaşında olan insanla 40-50 yaşında olan insan eyni fikirdə olmaz ki. Həqiqətən də yaş insanı müdrikləşdirir.

***- Yaxın bildiyiniz insanlardan xəyanət gördükdə ona necə reaksiya verirsiniz?***

- Ətrafımdakı insanlar mənim üçün çox əzizdir. Onlar mənə qarşı haqsızlıq edəndə, yalan danışanda özümü bağışlaya bilmirəm. Mən ümumiyyətlə, küsəndə yaxınlarımdan küsürəm. Çünki uzaq adam mənim üçün maraqlı deyil. Ancaq tez küsəyən olsam da, bağışlamağı da sevirəm. Çalışıram ki, dərinliyə varmayım. Çünki özüm əzab çəkirəm.

***- Hacı xanımsınız, deyirlər insan o müqəddəs torpağı ziyarətdən sonra dəyişir. Özünüzdə bunu müşahidə etmisinizmi?***

- İnsan sevməsə yaşaya bilməz. Qadın ailəsi, uşağı üçün yaşamalıdır. Mənim üçün sevgidən başqa heç nə yoxdur. Həccə getdim, başımı qara daşa salanda Tanrıdan bir arzum, diləyim oldu. Dedim, ay Allah, mənim içimə sevgidən başqa heç bir şey salma. Dedim, sevgini məndən əskik etmə. İnanın, hətta uşağımla bağlı diləyim də bu duamdan sonra oldu. Tanrıdan birinci diləyim sevgini məndən əsirgəməməsi olub. Sevgi insana mərhəmət verir. Həyatda elə insanlar olur ki, deyirəm İlahi, onun ürəyinə bircə damcı sevgi sal. Sevgidən uzaq insanların içi bulanıqdır.

***- Nəzakət xanım, bilirik ki, siz qarabağlısınız. Qarabağsız qarabağlı kimi danışmaq çətin deyil ki?***

- O yerlər indi yoxdur deyə, o haqda danışmaq da mənə çox çətin gəlir. Bəlkə də ona görə mən az danışan adamam.

O yerlər, doğma yurdum-yuvam beynimdə təmiz bir səhifə kimi qalıb. Ağdamda olanda sadə və xoşbəxt həyat sürürdük. Amma indi hər şeyimiz olsa da, elə bil həyatımızda nəsə çatmır, nələrsə artıq bitib. Qarabağsız qarabağlı kimi danışa bilmirəm - bu, çox çətindir. Yaşlandıqca o torpaqlar məni çəkir, yuxularıma girir. Xəyalən o yerlərdə tez-tez oluram.

***- Pedaqoji fəaliyyət göstərirsiniz. Tələbələrinizdən razısınızmı?***

- Razı olduqlarım da, narazı olduğum da var. Xanəndə oxuduğu qəzəlin hisslərini tamaşaçıya çatdırmağı bacarmalıdır. Bəzən olur ki, valideynlərinin məsləhəti ilə azacıq səsi olan da xanəndə olmaq istəyir. Ancaq mən onlara bunun doğru olmadığını, bu səslə o boyda ağırlığı qaldıra bilməyəcəklərini başa salıram. Çünki muğam ifaçısının səsi ürəyindən gəlir. Cibində səs gəzdirəndən xanəndə olmaz. Fonoqramla oxumaq heç bir gənc xanəndəyə yaraşmaz.

***- Yaxın gələcəkdə sənətlə bağlı hər hansı bir planınız varmı?***

- Planlar çoxdur. Qarşıda bir neçə qastrol səfərlərimiz var. Yeni mahnılar üzərində də işləyirəm.

**Şəmsiyyə Əliqızı,**
**Tural Əhmədov (foto),**
***"İki sahil"***